# QƏLBİN XƏSTƏLİKLƏRİ

Abinin İsfəndiyari[1]

İslam Araşdırmaları Fakültəsində Tədqiqatçı, Hikmət və Dinlərarası Araşdırma İnstitutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran.

## Abstrakt

İnsanın fitrəti və təbiəti Allah ruhunun təcəllisidir. Şeytan yaradılışın əvvəlindən and içdi ki, insanın azması üçün bacardığı qədər şərait yaradacaq. O vaxtdan bu günə qədər həmişə insanın heyvani və dünyəvi təbiətindən istifadə edərək Allahın xəlifəsinə, yəni insana əvəzolunmaz zərərlər, zərbələr vurub. Qəlbin xəstəlikləri və xətaları insanın özünə aiddir. İnsana "qəlb" adında qiymətli gövhər inayət edən Allah onu səbəbsiz korlamaz. İnsanın özüdür ki, ixtiyari sapmaları və günahları ilə daim aktiv olan öz qəlbini hərəkətdən saxlayaraq onu çirkinliklər amilinə çevirir.

**Açar kəlmələr:** Qəlb, Xəstəlik, Kin, Həsəd, Riya.

[1]. Email: asiahat@gmail.com

## Giriş

Burada qəlbin xəstəlikləri kimi qeyd etdiyimiz bəşərin mənfi və heyvani xasiyyətlərini, yalnız Həzrət Əlinin (ə) Nəhcül-Bəlağədə əziz oğluna xitabındakı bu göstərişi ilə kontrol edə bilərik: "Öz qəlbinə nəsihətlə həyat ver və nəfsini yalan dünyəvi çöhrələrə qarşı cilovla, yəqin ilə gücləndir, hikmətli sözlərlə işıqlandır və ölümü yad etməklə onu zəlil elə."

Həzrət Əli (ə) tarix boyu övladına və özünün bütün mənəvi övladlarına necə də hikmətli və işıqlı göstəriş verir! Həqiqətən də qəzəb, kin-küdurət, şəhvət, dünya sevgisi, xudpəsəndlik, tamah, ehtiras, həsəd, qürur, təəssüb, təkəbbür, riya (və s.) elə xəstəliklərdir ki, Əli (ə) kimi mahir təbibə müraciət etməkdən və Nəhcül-Bəlağənin reseptindən başqa bir yolla ilə müalicə oluna bilməz. Bu fəsildə bu xəstəliklərdən bir hissəsini Nəhcül-Bəlağənin və İmam Əlinin (ə) nəzərindən araşdıracağıq.

## Riya

Riya – "ruyət (görmək)" kökündən alınmışdır və zahir etmək, özünü, öz əməlini başqalarına göstərmək mənasındadır. Riyakarın məqsədi ibadətlə, yaxşı əməllərlə camaatın nəzərini özünə tərəf cəlf etməkdir. Belə bir adam həqiqətdə müşrikdir. Çünki öz izzət və əzəmətini Allahın yox, camaatın əlində olduğunu güman edir. Buna görə də öz əməllərini camaatın nəzərini cəlb etmək məqsədi ilə edir.

Niyyətdə ixlas məqsədi Allaha xatir xalisləşdirməkdir. Niyyət o zaman Allaha xatir olur ki, insanın ibadətdə, yaxud öz əməlində Allahdan başqa heç bir hədəfi olmasın və yalnız Allaha yaxınlaşmaq, Onun razılığını əldə etməkdən başqa heç bir amil onu ibadətə, əmələ vadar etməsin. Nəfsani istəklər insanı çox geniş və güclü şəkildə mühasirəyə alıb. Buna görə də ibadətdə, əməldə xalis niyyətə malik olmaq çox çətin işdir. Niyyətdə ixlas Allaha tam yönəlməklə və şüurla həyata keçər. Harada Allaha yönəlmə olmasa, orada qəflət olar. Harada qəflət olsa, orada şirk və riya olar. Məqsədə yönəlməyən şəxs qəflətdədir və hədəfdən qaflətdə olan isə hərəkətdən qalar.

Həzrət Əli (ə) bütün möminlərə kamil bir göstərişində bəyan edir ki, öz əməllərinizi, yalnız Allaha xatir edin. Ona görə ki, belə olmayan halda həmin əməlin mükafatını o adamlardan almalıdır, çünki bu əməli Allaha yox, onlara xatir etmişdir. Buna əsasən gözəl bir ifadədə belə buyurur: “Allahdan elə qorxun ki, üzr istəməyə ehtiyac olmasın. Riyaya və özünüzü nümayişə mübtəla olmadan yaxşı əməllər edin. Çünki kim Allahdan qeyrisi üçün bir əməl edərsə, Allah belə şəxsi onun öhdəsinə qoyar.”

Həzrət Əli (ə) bu xütbəsində “riya” sözü ilə yanaşı “özünü nümayiş” mənasında olan “sumə” (eşitdirmək) sözündən istifadə etmişdir. Alimlər bu iki söz arasında balaca bir fərqə inanırlar. Ayətullah Məkarim Şirazi onların fərqi haqqında yazır: Bu sözə iki izah verilmişdir. Birincisi budur ki, bu söz insanın Allaha xatir, İlahi məqsədlə bir iş görməsindən ibarətdir, amma o bundan sonra həmin əməlini başqalarının qulağına çatdırmaq, bununla da etibar, məqam qazanmaq fikrinə düşür. Fəqihlərin etiqadına görə bu, əməlin batil olmasına səbəb olmur. Amma onun savabını azaldır, yaxud da aradan aparır. Çünki həmin fikir əməldən sonra yaranmışdır.
**İkincisi:** əməlin əvvəlində məqsəd budur ki, camaat onu eşitsin və yaxşı əməl sahibi kimi tanısınlar. Bu əməlin riya ilə heç bir fərqi yoxdur. Onların fərqi yalnız budur ki, həmin şəsx riya zamanı bir əməli camaatın görməsi, amma o birində isə eşitməsi üçün edir.

Aydındır ki, bu mənada olan “sumə” əməlin batil olmasına səbəb olur, çünki niyyətin xalisliyini aradan aparır.

Hər halda, “riya” və “eşitdirmə” İlahi və ibadət əməllərinə ən böyük zərər vurur. Riya və “sumə” nin insani əməllərdəki nüfuzu çox incə və qarışıq olduğundan, ayə və hədislərdə daim onlara qarşı diqqətli olmaq xəbərdarlıq edilmişdir.

Biz insanlar ətrafımızdakıların öz rəftarlarında bizimlə tamamilə xalis niyyətli olmağını istəyirik, Allah da Öz bəndələrindən istəyir ki, onların əməlləri tamamilə Onun rzası üçün olsun. Həzrət Əli (ə)

bu haqda buyurur: "Həqiqətən də Allah insanların niyyətlərinin Onun itaətində güclü və riyasız olmasını sevdiyi kimi, onların camaatla rəftarında niyyətlərinin gözəl olmasını da sevir."

İbadətdə riya insanla Allah arasındakı rabitənin zəifləməsinə səbəb olur. İbadətdə riya ibadəti oyun-oyuncaq saymaq kimidir və nəticədə də Allahı istehza etməyə gətirib çıxarır. Eləcə də insanın başqaları ilə rabitəsinə də təsir qoyur. Çünki riyakar insan həmişə başqalarını aldatmaq fikrindədir və onunla əlaqəsi olan fərdlər heç vaxt onun həmlələrindən amanda deyillər. Nəticədə belə bir əməli ictimai meyarlardan xaric olmaq saymaq olar.

Riyakar hər bir digər fərd kimi öz ixtiyari əməlini mənfəətin cəlb, yaxud da zərərin dəf olunması niyyəti ilə edir. Çünki camaatın zehni və qəlbində yüksək məqama malik olmaq istəyir. Ona görə nəzərləri cəlb etmək və camaatın rzası Allahın rzasından daha mühümdür! Belə bir fərd iki böyük səhv edir: Əvvəla, o bilmir ki, camaatın onun haqda fikiri İlahi iradəyə bağlıdır və o əməllərin camaatın diqqətini cəlb etməkdə, yaxud nifrətə səbəb olmasındakı təsiri Allahın əlindədir. Əgər Allah istəsə, o əməllər nəzərlərin cəlb olunmasına və camaatın onun haqqında yaxşı fikirdə olmasına səbəb olar. Yox əgər istəməsə, həmin əməllər camaatın ona nifrət etməsinə bais olar. Deməli, riyakar feldə tövhidə etiqadında, inancında büdrəmiş və yoldan çıxmışdır. İkincisi isə, riyakar güman edir ki, camaat ona xeyir verməkdə, yaxud ondan bir zərəri uzaqlaşdırmaqda müstəqildir və diqqət etmir ki, camaatın əməllərinin xeyir verməd ə və zərəri dəf etmədə təsiri olması Allahın iradəsinə bağlıdır, onlar bunda müstəqil deyillər. Bu qəflət və diqqətsizlik feldə tövhidə diqqətsizlik deməkdir və riyakarın şirk dairəsinə qədəm qoymasına səbəb olur.

Həzrət Əli (ə) şirk və onun riya ilə rabitəsi haqqında buyurur: *"Bilin ki, riyakarlığın azı belə şirkdir."*

İmam Sadiqdən (ə) nəql olunmuş rəvayətdə deyilir: “Hər bir riya şikrdir. Kim camaat xatirinə əməl etsə, onun mükafatı camaatın və kim də Allaha xatirinə edərsə, mükafatı Allahın öhdəsindədir.”

Əgər riyakar camaatın nəzərinin cəlb edilməsində müvəffəq olarsa və bir müddətə qədər camaat onun haqqında yaxşı fikirdə olsa da, o tədricən Allahdan daha da qafil olar və güman edər ki, özü haqqında camaatda yaxşı fikir yaradan onun özüdür. Amma bilmir ki, eyibləri örtən (Səttarul-Uyub) Allah-taala onun pis əməlini, riyakarlığını örtmüşdür. Bu qəflət onun bu günaha düşməyə israr etməsinə və qəlbinin zülmətini artmasına səbəb olur.

Riyanı müalicə etməyin ən effektli yolu riyakarın Allahla bağlı düşüncəsini yenidən gözdən keçirməsidir. Əgər riyakar yalnız Allah-taalanın mütləq qadir olduğunu və başqalarının müstəqil şəkildə elmi və qüdrəti olmadığını bilsə, bu zaman dərk edəcək ki, onun niyyətinin və əməllərinin gözəlliyindən, çirkinliyindən yalnız O agahdır, yalnız O Öz bəndəsinin xeyrini təmin və zərərlərini dəf edə bilər. Bu zaman da “mümkün-varlıq” olan gücsüz məxluqlara söykənməkdənsə “vacib-varlıq” olan qadir və mehriban Allaha üz tutar və gözəl adı, dünya səadətini, axirəti Ondan istəyər. Çünki Allah-taaladan qeyri hər bir mövcud zəifdir. Necə ki, Allah-taala Həcc surəsinin 73-cü ayəsində buyurur: “Şübhəsiz ki, Allahdan qeyri ibadət etdiyiniz bütlər heç, bir milçək də yarada bilməzlər – hətta hamısı bunun üçün bir yerə yığışsa belə! Əgər milçək onlardan (bütlərin üstündə olanlardan) bir şey götürüb aparsa, onu milçəkdən geri ala bilməzlər. İstəyən də acizdir, istənilən də!”.

## Kin-Küdurət

Kin bir fərdin başqasına qarşı daxili düşmənçilik hissidir və fərdin həyata keçirə biımədiyi qəzəbin nəticəsidir. Buna əsasən, kinli şəxs öz qəzəbini gerçəkləşdirə, intiqamını ala bilmək üçün fürsət gözləyir.

Kinin müxtəlif mənfi təsirləri var, o cümlədən həsəd, əlaqələrin kəsilməsi, dil ilə əziyyət etmə, qeybət, yalan, böhtan və istehza.

Əgər bu xarici keyfiyyətlərin heç biri olmasa belə, kinli insan heç vaxt fədakar, mehriban, təvazökar, gülərüz, ehtiyacsızlara kömək edən ola bilmədiyinə əsasən yenə də deyə bilərik ki, kini qəlbin ən dağıdıcı xəstəliklərindən saymaq olar.

Rəhimli, bağışlayan Allaha və onun Rəsuluna (s) iman gətirən bir möminə öz qəlbini kinə məkan edərək özünü və başqalarını əziyyətə salmaq yaraşmaz. Kinli qəlb imanla uyğun deyil. İmam Əli (ə) bir hədisdə kinin həsədə mənbə olmasına işarə edərək buyurur: *"Kinli olmaq həsədli adamların xisləti və əxlaqıdır."*

Bu xətərli xəstəlik haqqında həmçinin buyurmuşdur: *"Qəlblərinizi kindən təmizləyin, çünki o məhvedici bir dərddir."*

Nəhcül-Bəlağənin nəzərinə əsasən başqalarına qarşı hər növ düşmənçilik və kin-küdurətdən uzaq durmaq lazımdır. Çünki o insanın canını, qəlbini təhrik edərək bir çox pisniklərin əmələ gəlməsinə zəmin yaradır.

Həzrət Əli (ə) buyurur: "Kim inadkarlıq etsə və kini davam etdirsə, belə bir şəxs əhdi pozan adamdır ki, Allahın onun qəlbinə pərdə çəkib."

## Kinin səbəbləri

Böyük əxlaq alimlərindən olan mərhum Molla Əhməd Nəraqi kinin yaranmasının səbəbini qəzəb hesab edir. O bu haqda yazır: "Əhli-Beyt (ə) rəvayətlərində kin və düşmənçiliyin səbəbləri zikr olunmuşdur. Amma bilmək lazımdır ki, bu səbəblər məhdud deyil və rəvayətlərdə gələn səbəblər insanların daha çox üzləşdiyi səbəblərdir. Bu səbəb və amillər insanda qəzəb yaradır və insan qəzəblənərkən öz qəzəbini üzə çıxara, sakitləşdirə bilmədikdə bu qəzəb onun qəlbində yığılaraq kin-küdurətə səbəb olar. Deməli, kinin əsas səbəbi qəzəbdir və həqiqətdə demək olar ki, kin qəzəbin qoyduğu təsirlərdəndir."

Əhli-Beyt (ə) rəvayətlərində belə gəlmişdir ki, əgər insan öz qardaşından onun bacardığı həddən artıq nəsə gözləsə və nəticədə də onun istədiyini yerinə yetirməməsi səbəbilə məzəmmət edərsə, danlayarsa, bu məzəmmət qardaşının qəlbində ona qarşı kinə səbəb olar. Bu, iki dost, iki qardaş, müəllim-şagird, valideyn-övlad, ər-arvad

və s. arasında da ola bilər. Həzrət Əli (ə) bu haqda buyurur: “Qardaşını olduğu kimi qəbul elə və onu çox danlama, çünki bu kinə səbəb olar.”

Əgər insan sahib olduğu bir şeylə (məsələn ailə müvəffəqiyyəti ilə) başqa bir şəxsin qarşısında fəxr etsə və o şəxs buna malik olmasa, ya da onu əldə etmək imkanı olmasa, nəticədə ona qarşı kinli olar. İbn Əbil-Hədid “Nəhcül-Bəlağə” yə yazdığı şərhində İmam Əlidən (ə) bu haqda aşağıdakı rəvayəti nəql edir: “Elmə həvəsi olmayan adamın yanında elm nümayiş etdirməkdən və iftixarlı keçmişi olmayan şəxsin yanında keçmişin məqam və şərafəti haqda danışmaqdan çəkinin. Çünki bu, onun qəlbində sənə qarşı kinə səbəb olar.”

## Tamah

Qəlbin digər xəstəliklərindən biri də tamah və hərislikdir. Bu hiss insanın iliyinə elə nüfuz etmişdir ki, hər bir fərdin ən qaranlıq şəxsiyyət dərinliklərini təsir altında saxlayır. Tamah və hərislik öz başına buraxılsa o, nəfsin cilovunu öz ixtiyarına alar və biz öz cilovumuzu nəfsin istəklərinin əlinə versək bizi həlakət uçurumuna tərəf aparacaq. Tamah lüğətdə nəfsin “şövq” ü, şəhvət və meyl üzündən müəyyən tərəfə “cəzb” olunmasıdır.

Ağıl adamı xətalardan saxlayan güclü bir qüvvədir. Şəkk, şübhə zamanı ona yol göstərir və vəzifəsini təyin edir. Amma ağıl həmişə öz düzgün yolunu getməsi üçün müvəffəq olmur. Bəzən elə maneələrlə üzləşir ki, bu maneələr onu öz düzgün yolundan sapdırır. Bu maneələr o qədər güclüdür ki, ağılla döyüşür və bəzən onu məğlub edirlər. Bu maneələrin ən mühümü tamahdır.

Tamah uzaqdan gözəl görünən xəyali bir mənzərə yaradır. Tamahkar insan ona baxanda gözləri qamaşır, ağılı bu xəyalın rənginə, gözəlliyinə vurulur. Bir də o zaman ayılır ki, həlakət və bədbəxtlik bataqlığındadır. Özünü süqut və yoxluq dərəsində müşahidə edir. Bu zaman başa düşür ki, bu bəlanı onun başına tamah gətirib. Buna görə insan tamahı öz təbiətində boğmalıdır ki, o, ağıl ilə mübarizə etməsin və ağıla qalib gələ bilməsin.

Həzrət Əli (ə) buyurub: "Ağıllarınən ən çox yerə dəydiyi, məğlub olduğu yer tamahın bər-bəzək meydanıdır."

O həzrət (ə) nəfsani istəklərin insan ixtiyarında olması haqda buyurur: "Ey arzulara əsir olanlar! Daha bəsdir. Dünya məqamına malik olanları, yalnız fələyin hadisələri dəhşətə gətirər. Ey camaat! Təlim-tərbiyənizi özünüz öhdəyə alın və nəfsi həris olduğunuz adətlərdən geri qaytarın."

Tamah iki növdür: bəyənilən və məzəmmət olunan. Bəyənilən tamaha misal olaraq Allahın bağışlamasına tamahkar olmağı demək olar. Necə ki, İmam Səccad (ə) "Əbu Həmzə Somali" duasında buyurur: "Ey mənim Mövlam! Günahımı gördüyüm zaman nalə, ah-zar edirəm, dəhşətə gəlirəm. Sənin əfvini görəndə isə tamahlanıram."

Cənnətə yetişmək üçün enişli-yoxuşlu yollardan, təlatümlü, xətərli dəryalardan keçmək lazımdır. Amma cəhənnəmə daxil olmağın yolu isə nəfsani istək və həvəslərin ortasından keçir.

Həzrət Əli (ə) Allaha xitabında buyurur: "Mən Sənə cəhənnəm qorxusuna, yaxud cənnət sevgisinə görə ibadət etmirəm. Əksinə, Səni ibadətə layiq gördüyüm üçün ibadət edirəm."

Əlbəttə, həzrət Əlidə (ə) cəhənnəmə tamahın olmaması tamamilə təbiidir. Çünki o (ə) elə bir Allaha yaxınlıq məqamına çatmışdır ki, cənnət onun müqabilində kiçik görsənir.

Amma məzəmmət olunan tamaha gəldikdə: bu tamah caamat arasında "filankəs xam xəyaldır" deyilən həmin tamahdır. Bu, yaraşmaz xislət və mənfi keyfiyyətdir.

## Nəticə

Qəlbin xəstəlikləri və xətaları insanın özünə aiddir. İnsana "qəlb" adında qiymətli gövhər inayət edən Allah onu səbəbsiz korlamaz. İnsanın özüdür ki, ixtiyari meyli və günahları ilə öz fəal qəlbini hərəkətdən saxlayır və onu pis iş görən şəkilə salır.

Burada qəlbin xəstəlikləri kimi qeyd etdiyimiz bəşərin mənfi və heyvani xasiyyətlərini, yalnız Həzrət Əlinin (ə) Nəhcül-

Bəlağədə öz əziz oğluna xitabındakı bu göstərişi ilə kontrol edə bilərik: “Öz qəlbinə nəsihətlə həyat ver və nəfsini yalan dünyəvi çöhrələrə qarşı cilovla, qəlbini yəqin ilə gücləndir, hikmətli sözlərlə işıqlandır və ölümü yad etməklə öz nəfsini zəlil elə.”

Həqiqətən də qəzəb, kin-küdurət, şəhvət, dünya sevgisi, xudpəsəndlik, tamah, ehtiras, həsəd, qürur, təəssüb, təkəbbür, riya (və s.) elə xəstəliklərdir ki, Əli (ə) kimi mahir təbibə müraciət etməkdən və Nəhcül-Bəlağənin reseptindən başqa bir yolla müalicə oluna bilməz.

Riya – “ruyət (görmək)” kökündən alınmışdır və zahir etmək, özünü, öz əməlini başqalarına göstərmək mənasınadır. Riyakarın məqsədi ibadətlə, yaxşı əməllərlə camaatın nəzərini özünə tərəf cəlb etməkdir.

Həzrət Əli (ə) buyurur: “Kim inadkarlıq etsə və kini davam etdirsə, o əhdi pozan adamdır ki, Allahın onun qəlbinə pərdə çəkib.”

Tamah və hərislik insanın iliyinə elə nüfuz etmişdir ki, hər bir fərdin ən qaranlıq şəxsiyyət dərinliklərini təsir altında saxlayır. Tamah və hərislik öz başına buraxılsa, o, nəfsin cilovunu öz ixtiyarına alar və insan öz cilovunu nəfsin istəklərinin əlinə versə, onu həlakət uçurumuna tərəf aparacaq.

Həzrət Əli (ə) münafiqlər haqqında – “Onlar hər bir haqq müqabilində batil, hər bir qəti dəlil qarşısında şübhə, hər bir diri üçün ölü, hər bir qapı üçün açar, hər gecə üçün çıraq hazırlayıblar” dedikdən sonra buyurur: “Münafiqlər məyus olduqlarına görə tamaha və hərisliyə pənah apararlar ki, öz bazarlarını isti saxlasın və zinətli hiylələri ilə özlərini göstərsinlər.”

Kim tamah göstərsə, öz nəfsini zəlil və təhqir etməkdən başqa bir şey etməz. Həzrət Əli (ə) buyurur: “Kim tamahı şüara çevirsə və alt paltarı kimi özünə yapışdırsa, yalnız özünü təhqir etmiş olar.”

## Ədəbiyyat

Qurani-kərim

Nəhcül-bəlağə

Amoli, Cavadi, Təsnim, Qum, 1396

Təbatəbayi, Məhəmmədhüseyn, Qum, əl-Mizan, 1389

Məkrim Şirazi, Təfsire-Nümunə, Qum, 1390

Əl-Fəzail, Şazan ibn Cərayıl Qummi, Nəcəf, Heydəriyyə mətbəəsi, 1338 hicri-qəməri.

Qürbül-isnad, Abdullah ibn Cəfər Himyəri Qummi, tədqiq: Alül-beyt müəssisəsi, Qum, Alül-beyt müəssisəsi, 1413 hicri-qəməri, birinci çap.

Əl-Kafi, Məhəmməd ibnYəqub Kuleyni Razi, tədqiq: Əli Əkbər Qəffari, Beyrut, Darüs-səb və Darüt-təarüf, 1401 hicri-qəməri, dördüncü çap.

"Əl-Burhan fi-ulumil-Quran", Beyrut, 1998

Əl-Kafi, Məhəmməd ibnYəqub Kuleyni Razi, tədqiq: Əli Əkbər Qəffari, Beyrut, Darüs-səb və Darüt-təarüf, 1401 hicri-qəməri, dördüncü çap.

Məcməül-bəyan fi təfsiril-Quran, Fəzl ibn Həsən Təbrisi, Seyid Haşim Rəsuli Məhəllati və Seyid Fəzlülah Yəzdi Təbatəbayi, Beyrut, Darül-mərifə, 1408 hicri-qəməri, ikinci çap.

Biharül-ənvar, Məhəmmədbaqir ibn Məhəmmədtəqi Məclisi (Əllamə Məclisi), Beyrut, Vəfa müəssisəsi, 1403 hicri-qəməri, ikinci çap.